**Elçin GÜLALIYEV**
*AMEA Əlyazmalar İnistitutunun doktorantı*

# NADİR VƏ QİYMƏTLİ NƏŞRLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ, SAXLANILMASI, MÜHAFİZƏSİ VƏ İSTİFADƏSİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

***Açar sözlər:****nadir və qiymətli nəşrlər, nadir nəşrlər fondu, kitabxana fondu, kitabxana siyasəti, kitabxana qanunvericiliyi, kitab abidələri, nadir sənəd nüsxələri*
***Key words:*** *rare and valuable editions, rare editions fund, library fund, library policy, librarylaw, book monuments, rare document copies*
***Ключевые слова:*** *редкие и ценные издания, редкие издания фонда, библиотечного фонда, библиотека политики, юридическая библиотека, книги, памятники, редкие копии документов*

*Nadir və qiymətli nəşrlər xalqın əhəmiyyətli milli-mədəni və tarixi sərvətidir. Bu nəşrlər kitabxana fondlarının mühüm hissəsini təşkil edir. Məqalədə nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi, saxlanılması, mühafizəsi və istifadəsi sahəsində dövlət siyasətinin başlıca istiqamətləri haqqında elmi ümumiləşdirilmə əks etdirilir.*

Milli mədəniyyətin ayrılmaz tərkib hissəsi olan kitab mədəniyyəti öz funksional çoxistiqamətliliyi və xidmət aspektləri baxımından kompleks xarakter daşıyır. Kitab mədəniyyətinin mühüm tərkib hissəsini nadir və qiymətli kitablar təşkil edir. Nadir kitablar öz mədəni əhəmiyyətinə, kulturoloji dəyərinə, ümummilli funksiyalarına görə xalqın etno identifikliyinin müəyyənləşdirilməsində, milli-mədəni və mənəvi dəyərlər sisteminin müəyyənləşdirilməsində, tarixi-milli xüsusiyyətlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikasında nadir və qiymətli nəşrlərin müəyyənləşdirilməsi, mühafizəsi, bərpası və istifadəsi istiqamətində mühüm dövlət siyasəti həyata keçirilmiş, əhəmiyyətli tədbirlər görülmüşdür.1995-ci ildə qəbul edilmiş ilk demokratik milli ana qanunumuz olan Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan dövləti tərəfindən "Mədəniyyət haqqında" (1998), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" (1998), 28 dekabr 1998-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilən vətətbiqi haqqında 12 mart 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən sərəncam imzalanan "Kitabxana işi haqqında") qanunların qəbul edilməsi və tətbiqi, eləcə də, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (2007) və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin



2008-2009-cu illərdə inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamları ümumilikdə ölkənin mədəniyyətinin, informasiya mühitinin, kitabxana-biblioqrafiya və informasiya fəaliyyətinin optimallaşdırılmasına, inkişafına və perspektiv gələcəyinə yönəlmiş böyük ümumdövlət tədbirləri kimi olduqca ciddi tarixi-mədəni və hüquqi-siyasi əhəmiyyət daşıyır.[6, s.111]

Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin, müvafiq nazirliklərin, komitələrin və digər dövlət orqanlarının kitabxana-informasiya sahəsinin vəziyyətinin yaxşılaşdırılması, inkişafı və kompleks tərəqqisi naminə həyata keçirdiyi tədbirlər, qəbul edilən qərarlar, verilən əmr, sərəncam və təlimatlar da sahənin kompleks hüquqi təminatı və optimal təkmilləşdirilməsi və inkişafı mexanizminin işlənib hazırlanması baxımından yüksək əhəmiyyət kəsb edir[4, s.99 ].

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununun[9] 1-ci maddəsinin 4-cü və 11-cihissələrində müvafiq olaraq deyilir:

"Mədəniyyət sahəsində dövlət siyasəti-mədəni irsin və mədəni sərvətlərin yaradılması, müəyyən edilməsi, qorunması, inkişafı və təbliği sahəsində həyata keçirilən tədbirlərdə dövlətin rəhbər tutduğu məqsədlər, prinsiplər, normalar, konsepsiya, strategiya və dövlət proqramlarının məcmusu"dur.[9].

"Milli mədəni irs – Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu"dur. [9]

Qanunun həmçinin, "Mədəniyyət sahəsində fəaliyyətin xüsusiyyətləri" adlanan 22-ci maddəsinin 5-ci hissəsində deyilir:

"Milli mədəni irsə aid, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə məxsus mədəni sərvətlərin hüquqi və fiziki şəxslər tərəfindən kommersiya və qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi müvafiq icra hakimiyyəti orqanının razılığı ilə həyata keçirilir"[9].

"Milli-mədəni irs Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu"dur [9].

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun [8]13-cü maddəsi "Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu" adlanır. Burada deyilir:

"Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondu kitabxanalararası əlaqələndirilmiş komplektləşdirmə, qarşılıqlı istifadə, depozitar mühafizə və mübadilə prinsipləri əsasında təşkil edilən, məlumat-axtarış sisteminə malik olan kitabxana fondlarından ibarətdir.

Kitabxanalarda olan nadir və qiymətli nəşrlər, xüsusi kolleksiyalar qanunvericilikdə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının

milli-mədəni sərvətlər reyestrinə daxil edilir və xüsusi rejimdə mühafizə olunur. Onların mühafizəsi lazımi qaydada təmin edilmədikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən digər kitabxanaya verilə bilər.

Azərbaycan Respublikası Dövlət Kitabxana Fondu dövlət mülkiyyətidir."[8]

Həmçinin, Qanunun "Dövlət kitabxana fondunavurulmuş ziyana görə məsuliyyət" adlanan 19-cu maddəsində deyilir:

"İtirilmiş və yararsız vəziyyətə salınmış çap əsərləri və digər materiallar kitabxana ilə razılıq əsasında başqa müvafiq çap əsərləri və materiallarla əvəz edilə bilər. Bu qayda Azərbaycan Respublikasının milli mədəni sərvətlər reyestrinə daxil edilən nadir nüsxələrə şamil edilmir.

Nadir nüsxələr fonduna vurulan zərərə görə məsuliyyət mövcud qanunvericiliklə tənzimlənir".[8]

Göründüyü kimi, Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin kompleks hüquqi nizamlanmasını həyata keçirən bu ali ümumdövlət qanununda nadirvə qiymətli nəşrlər, xüsusi kolleksiyalar xalqın milli-mədəni sərvəti kimi göstərilmiş, onların saxlanılması, mühafizəsi və istifadəsi üçün xüsusi qaydalar müəyyənləşdirilmiş və icrası müvafiq subyektlərə həvalə edilmişdir.

Bu baxımdan həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 aprel tarixli "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nın təsdiq edilməsi barədə Fərmanı imzalandıqdan sonra Mədəniyyət və Turizm Nazirliyində respublikada mövcud olan unikal və nadir nüsxəli kitabların, xüsusi əhəmiyyətli nəşrlərin, əlyazmaların və s. aşkar edilməsi işinə başlanmışdır.[4, s.133.]

Bununla əlaqədar olaraq, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan Respublikasında milli-mədəni irsin mühafizəsi və gələcək nəsillərə çatdırılması sahəsində dövlət siyasətinin müəyyən etdiyi qanunvericilik aktları və digər qanun və sərəncamlara müvafiq olaraq "Kitab abidələri haqqında" Əsasnamə hazırlanmışdır.

Nazirlik tərəfindən 3566 adda müxtəlif formada kitab abidəsi dövlət reyestrinə daxil edilmişdir. Onlardan 1320 adda kitab abidəsi Mədəniyyət və Turizm Nazirliyinin sistemində, 2002 adda kitab abidəsi digər nazirlik, idarə və təşkilatların kitabxanalarında və muzeylərində, 244 adda kitab abidəsi isə şəxsi kolleksiyalarda olan nüsxələrdir.

Əldə edilmiş materiallara əsasən, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Kitabxanasında 1088 adda, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında 577 adda, BDU-nun Elmi Kitabxanasında 287 adda, Milli Arxiv İdarəsində 69 adda, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında 143 adda, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda 14 adda, Azərbaycan Texniki Universitetinin kitabxanasında 48 adda,



Azərbaycan Pedaqoji Universiteti 190 adda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında 36 adda, Azərbaycan Dillər Universitetinin kitabxanasında 8 adda, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Respublika Elmi Tibb Kitabxanasında 39 adda, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Respublika Elmi-Texniki Kitabxanasında 30 adda, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Respublika Elmi Kənd Təsərrüfatı kitabxanasında 50 adda, Cəfər Cabbarlı adına Dövlət Teatr Muzeyində 79 adda, Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində 39 adda, Musiqi Mədəniyyəti Dövlət Muzeyində 4 adda, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeçiliyində olan kitabxanalarda 14 adda kitab abidələri müəyyən edilmiş və qeydə alınmışdır.

Azərbaycan Respublikasında ən qədim kitab abidələri Prezident Kitabxanasında 1591-ci ildə italyan dilində çap olunmuş Appresso Erasmo, Viotto Parma "Historia di Parma", M.F.Axundov adına Milli Kitabxanasının nadir kitablar fondunda saxlanılan 1595-ci ildə Almaniyanın Yena şəhərində alman dilində çap olunan "Türklər haqqında on nəsihət" kitabları qeydə alınmışdır.

Reyestrin tərtibi zamanı şəhər (rayon) kitabxanalarında və tarixdiyarşünaslıq muzeylərində çoxlu sayda kitab abidələri aşkar edilmişdir. Azərbaycan Respublikasında şəxsi kolleksiyalarda saxlanılan kitab abidələrini aşkar etmək üçün yerli qəzet, radio və televiziya vasitəsi ilə əhaliyə müraciət edilməsi barədə şəhər (rayon) mədəniyyət və turizm idarələrinin (şöbələrinin) rəhbərlərinə tapşırıqlar verilmişdir. Hazırda reyestrdəşəxsi kolleksiyalarda saxlanılan 244 kitab abidəsi aşkar edilmişdir.

Azərbaycan xalqının milli-mədəni sərvətləri, milli-mədəni dəyərlərimin illərlə kitab yaddaşında qorunub saxlanılmış və gələcək nəsillərə çatdırılmışdır. Nadir nüsxələrə çevrilmiş əlyazmalar, kitab, qəzet və jurnalların çoxu bugünkü nəsillərə əmanət qalıb və tariximizin, iqtisadiyyatımızın, mədəniyyətimizin müxtəlif mərhələlərdə inkişafı barədə məlumat verən yeganə mənbələrdir.

Respublikanın bütün şəhər və rayonlarında məhz onlara xas olan təkrarolunmaz və bənzərsiz materiallar (yerli qəzetlər və nəşrlər) saxlanılır ki, onlar əbədi mühafizə edilərək, konservasiya olunması və gələcək nəsillərə çatdırılması zəruridir.

Göründüyü kimi, nadir və qiymətli nəşrlər xalqın milli-mədəni sərvətinin mühüm tərkib hissəsi kimi dövlətin xüsusi himayəsindədir. Onların müəyyənləşdirilməsi, saxlanılması, mühafizəsi dövlət tərəfindən müəyyən olunmuş üsul və qaydalar əsasında həyata keçirilir.

Nadir və qiymətli nəşrlər Azərbaycan dövlətinin müstəsna milli-mədəni sərvəti hesab olunur və bu sahədədövlət siyasəti vahid ümummilli siyasətin prioritet istiqaməti hesab olunur.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Konstitusiyası (son dəyişiklik və əlavələrlə). B., 2004.-47s.

2.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan-2007.-21 aprel

3."Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı// Respublika.-2008.-7 oktyabr.

4.Xələfov A.A. Kitabxana və cəmiyyət:(Monoqrafiya).-B.:Azərnəşr, 2011.-348 s.

5.Xələfov A.A. Azərbaycanda Kitabxana işinin tarixi: Dərslik:(III hissədə) h.3.:(XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin tarixi).-B.: BUN, 2010.-432 s.

6.İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə olunması:(Dərslik).-B.: "Nurlar", 2010.-328 s.

7.İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri: Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.27-39.

8."Kitabxana işi haqqında" Azərbaycan Respublkasının Qanunu//Azərbaycan.-1999.-14 mart.

9."Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.-1998.-7 mart

Е.Гюлалиев

## ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ИДЕНТИФИКАЦИИ, ТЕХНИЧЕСКОГО ОБСЛУЖИВАНИЯ, ОХРАНЫ И ИСПОЛЬЗОВАНИЯ РЕДКИХ И ЦЕННЫХ ИЗДАНИЙ

### РЕЗЮМЕ

Редкие и ценные издания важного национального культурного и исторического богатства нации. Эти публикации являются важной частью библиотечных фондов. Выявление редких и ценных книг в статье, хранения, защиты и использования основных направлений государственной политики находит свое отражение в научном обобщении.

E.Gulaliyev

## STATE POLİCY OF THEİDENTİFİCATİON, MAİNTENANCE, PROTECTİON AND USE OF THE RARE AND VALUABLE EDİTİON

### SUMMARY

Rare and valuable editions are important national-cultural and historical wealth of the nation. These editions are an important part of the library funds. The article is reflected about main fields of state policy of the identification, maintenance, protection and use of the rare and valuable edition in the field